*23 iyun - Dövlət qulluqçularının peşə bayramı günüdür*

# Azərbaycanda dövlət qulluqçularının peşəkarlığını artırmaq məsələsi daim diqqət mərkəzində saxlanılır

Bu il ölkəmizdə 14-cü dəfə dövlət qulluqçularının peşə bayramı qeyd olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Dövlət qulluqçularının peşə bayramı gününün təsis edilməsi haqqında" 2006-cı il 25 may tarixli sərəncam imzalamış və həmin il iyunun 23-də ilk dəfə ölkəmizdə dövlət qulluqçularının peşə bayramı dövlət səviyyəsində keçirilmişdir. Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin xüsusi sərəncamı ilə tədbirlər planı təsdiq edilmişdir, hansı ki, orada həm də kütləvi informasiya vasitələri qarşısında duran vəzifələr öz əksini tapmışdır.

Qeyd edək ki, bu peşə bayramının elan olunması haqqında qərar BMT Baş Məclisinin tövsiyələri nəzərə alınaraq qəbul edilmişdir. Bu günün beynəlxalq səviyyədə qeyd olunması dövlət qulluqçularının cəmiyyət qarşısında göstərdikləri xidmətin dünya birliyi üçün çox dəyərli olması ilə bağlıdır və onların ümumi inkişafa, sülhə, demokratiyaya böyük töhfə verdiklərinə diqqəti cəlb etmək məqsədi daşıyır. Bu beynəlxalq qurum hesab edir ki, dövlət qulluğunda çalışanların əməyi dünya birliyi üçün, habelə üzv dövlətlərin sosial-iqtisadi inkişafı üçün olduqca əhəmiyyətlidir. Milyonlarla dövlət qulluqçusu öz gündəlik peşə vəzifələrini icra etməklə əslində problemlərlə, münaqişələrlə dolu olan dünya ölkələrində cəmiyyətin sabitliyinin, tərəqqisinin, insanların haqqının təmin edilməsi kimi ən məsuliyyətli bir işin ağır yükünü öz çiyinlərində daşıyır.

Azərbaycanda bütün sahələrdə olduğu kimi, müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafı da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda görkəmli siyasi xadim Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Böyük öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanıb 1995-ci ildə qəbul olunmuş Milli Konstitusiya ölkəmizdə dövlət quruluşunun və idarəçilik prinsiplərini təsbit etmiş, dövlət həyatının bütün sahələrini tənzimləyən zəruri qanunvericilik bazasının yaradılmasına bazis vermişdir. "Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" 1998-ci ildə imzalanmış fərmanla isə dövlət idarə edilməsi sahəsində islahatlara start verildi və beləliklə də hərtərəfli düşünülmüş, elmi cəhətdən əsaslandırılmış, Avropa və dünya ölkələrinin dövlət idarəetmə sisteminin üstünlüklərini və milli dövlətçilik ənənələrini özündə cəmləşdirən dövlət idarəçiliyi sistemi qurulmasına başlandı.

Həyata keçirilən köklü dəyişikliklər prosesində Azərbaycanın müasir dövlət qulluğu institutunun formalaşması mühüm yer tuturdu. Çünki bunsuz nə idarəçilik, nə də dövləti qurmaq mümkün deyil. Məhz "Dövlət qulluğu haqqında" 2000-ci il 21 iyul tarixli Azərbaycan Respublikası Qanunu bu sistemin normativ-hüquqi bazasının yaradılmasının və beləliklə də respublikada dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsasını qoydu. Bunun ardınca qəbul edilmiş çoxsaylı normativ-hüquqi sənədlər dövlət qulluğuna müsabiqə yolu ilə qəbul və qulluqkeçmə, irəli çəkilmə, fəaliyyətin maddi və mənəvi stimullaşdırılması, dövlət qulluqçularının etik davranış qaydalarına əməl edilməsinə nəzarət, dövlət qulluğuna rəhbərlik mexanizminin yaradılması və sair kimi məsələlərin həllini təmin etdi. Ümummilli lider Heydər Əliyevin dövlətçilik ənənələri və dövlət qulluqçusu üçün olduqca zəruri olan keyfiyyətləri 2003- cü ildə cənab İlham Əliyev ölkə rəhbəri seçildikdən sonra böyük bacarıqla davam etdirir. Belə ki, ölkə rəhbərinin 2005-ci il 19 yanvar tarixli fərmanı əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradıldı, Dövlət qulluğuna müsabiqə yolu ilə qəbul, dövlət qulluğunda irəli çəkilmə, qulluğa xitam verilməsi kimi qulluqkeçmə texnologiyaları, dövlət qulluğunda etik davranış qaydalarına əməl edilməsi, ona nəzarət mexanizmi və sair kimi məsələlərin həlli hüquqi zəmin üzərinə qaldırıldı. Son 17 ildə ölkə rəhbərinin imzaladığı çoxsaylı fərman və sərəncamlarda dövlət qulluqçularının əməyinin maddi və mənəvi cəhətlərdən stimullaşdırılması sahəsində mühüm tədbirlər həyata keçirilib. Dövlət qulluqçularının əməyini layiqincə qiymətləndirmək məqsədilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı təsis edilib və hər il dövlət qulluqçularının peşə bayramı münasibətilə onlarca dövlət qulluqçusu bu medalla təltif olunur. Həmçinin, dövlət qulluğunda fərqlənənlər respublikanın digər orden və medalları ilə, "Əməkdar dövlət qulluqçusu" fəxri adı ilə mükafatlandırılırlar. Dövlət qulluğuna rəhbərlik, qulluğun fəaliyyətinin koordinasiya məsələləri də müasir şəraitə uyğun daim təkmilləşdirilir. Son illər bu istiqamətdə atılan yeni addımlar sırasında Birinci vitse-prezident institutunun təsis edilməsi və bu yüksək vəzifəyə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təyin olunması böyük əhəmiyyət kəsb edir. Azərbaycan Republikasmm Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin - "ASAN xidmət" sisteminin, Tələbə Qəbulu üzrə Dövlət Komitəsi və Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın bazasında Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs təsisatının yaradılması və s. institusional dəyişikliklər həm də zamanın çağırışlarına cavab olaraq dövlət qulluğu sisteminin idarə olunması sahəsində islahatların davam etməsi və bu istiqamətdə yeni keyfiyyət mərhələsinə yüksəlmədən xəbər verir. Hazırda dövlətimizin inzibati islahatlar proqramında idarəçiliyin kadr təminatı məsələləri xüsusi yer tutur. Bu gün idarəetmədə, xüsusilə də dövlət idarəçiliyi sahəsində müasir, sistemli, dərin elmi biliklərə, dinamik inkişaf edən iqtisadiyyatımızın, formalaşmaqda olan informasiya cəmiyyətinin tələblərinə uyğun kreativ düşüncəyə malik, rəqabət qabiliyyətli kadrlarla təmin olunması həyati zərurətdir. Azərbaycanda dövlət qulluqçularının peşəkarlığını artırmaq məsələsi daim diqqət mərkəzində saxlanılır. Belə ki, dövlət idarəçiliyi sahəsində kadr hazırlığı və əlavə təhsil üçün geniş şəbəkə fəaliyyət göstərir. Bir sıra dövlət ali təhsil müəssisələri, o cümlədən xüsusi təyinatlı ali məktəblər dövlət idarəçiliyinin ən müxtəlif sahələrində çalışmaq üçün dövlət təhsil standartlarına uyğun kadr hazırlığını həyata keçirirlər. Bunlardan biri də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasıdır. DİA dövlət qulluqçularının hazırlanmasında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında çalışan dövlət qulluqçularının peşə səviyyəsinin yüksəldilməsində, bu məqsədlə açılan ixtisasartırma kurslarında təhsilin təşkil edilməsində, dövlət qulluğu məsələlərinə dair elmi-tədqiqat işlərinin aparılmasında, dövlət qulluğunun nəzəri və praktiki məsələlərinin öyrənilib müvafiq təkliflər verilməsində rolu böyükdür. Eyni zamanda bu təhsil ocağında fəaliyyət göstərən qısamüddətli kurslarda hər il yüzlərlə dövlət qulluqçusu idarəetmənin müasir tələblərini, bu sahədə olan yenilikləri həvəslə öyrənir, çalışdıqları qurumlarda, idarə və müəssisələrin işində tətbiq edirlər.

Ölkəmizdə dövlət qulluqçularının sayı ildən-ilə daha da artır ki, bu da yeni idarəetmə strukturlarının yaranması və bəzi qurumların yenidən təşkil olunması ilə bağlıdır. Hər il onlarca dövlət qulluqçusu dövlət qulluğunda səmərəli fəaliyyətinə görə həm dövlətimiz, həm də yerli icra hakimiyyəti orqanları tərəfindən mükafatlandırılırlar. Bəli, bu gün Azərbaycan böyük potensialı olan dövlət qulluqçusu kadrlarına malikdir. Peşə bayramınız mübarək, əziz dövlət qulluqçuları!

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

**Respublika.- 2020.- 21 iyun.- S.6.**